**Hüquq məsləhətxanamız**

Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq idarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir.

## Müavinətdən gəlir vergisi

*Müəssisənin işçisi xəstəlik vərəqəsi təqdim etdikdə ona ödənilən müavinətdən gəlir vergisi tutulurmu? Tutulursa, hansı qayda tətbiq edilir?*

Vergi Məcəlləsinin 97.3-cü maddəsinə əsasən, fiziki şəxslərin gəlirlərinin 3 növü fərqləndirilir: muzdlu işlə əlaqədar əldə edilən gəlir; muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlir; və vergilərdən azad edilən gəlirlərdən başqa bütün digər gəlirlər. Vergi Məcəlləsinin 98.1-ci maddəsində qeyd edilmişdir ki, fiziki şəxs tərəfindən muzdlu işlə əlaqədar alınan gəlir - əməkhaqqı, bu işdən alınan hər hansı ödəmə və ya fayda, o cümlədən əvvəlki iş yerindən, yaxud gələcək muzdlu işdən alınan gəlirdir. Vergi Məcəlləsinin 102.1.4-cü maddəsinə əsasən, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər istisna olmaqla, dövlət müavinətləri, əvəzsiz dövlət köçürmələri, dövlət pensiyaları, dövlət təqaüdləri, işçilərin sayının və ştatların ixtisar edilməsi ilə əlaqədar olaraq əmək müqaviləsinə xitam verildikdə işçilərə Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq ödənilən təminatlar, habelə Azərbaycan Respublikasının qanunları və müvafiq icra hakimiyyəti orqanlarının (Azərbaycan Respublikasının Prezidenti) qərarları əsasında dövlət büdcəsinin vəsaiti hesabına fərdi birdəfəlik ödəmələr və ya maddi yardımlar gəlir vergisindən azaddır. Vergi Məcəlləsinin 102.1.4-cü maddəsinin müddəalarından göründüyü kimi, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə ödənilən müavinətlər ümumi qaydada vergiyə cəlb edilir. Vergi Məcəlləsinin 150.1.1-ci və 150.1.2-ci maddələrinə müvafiq olaraq muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər, sahibkarlar və xüsusi notariuslar ödəmə mənbəyində vergini tutmağa borcludurlar. Vergi Məcəlləsinin 101.1-ci maddəsində qeyd edilmişdir ki, fiziki şəxslərin bu Məcəllənin 150.1.1-ci, 150.1.2-ci, 150.1.3-cü və 150.1.7-ci maddələrinə əsasən ödəmə mənbəyində vergiyə cəlb olunan gəlirlərindən vergi bu maddədə nəzərdə tutulan 1-ci cədvələ uyğun olaraq hesablanır və dövlət büdcəsinə ödənilir. Vergi Məcəlləsinin 101.1-ci maddəsində nəzərdə tutulan cədvəldə isə göstərilir ki, fiziki şəxsin aylıq gəliri 2000 manatadək olduqda məbləğin 14%-i, 2000 manatdan çox olduqda isə 280 manat + 2000 manatdan çox olan məbləğin 30%-i vergiyə cəlb olunur.